ДОМ
НАРОДОВ
ЯРОСЛАВСКОЙ
ОБЛАСТИ

# ƏCNƏBİ VƏTƏNDAŞ ÜÇÜNYADDAŞ KİTABÇASI



***Salam!***

*Yaroslavl vilayəti – tarixin və mədəniyyətin vəhdət şəklində birləşdiyi bir yerdir.*
*Biz burada müxtəlif millətlərdən olan insanların yaşaması ilə fəxr edirik.*
*Bu müxtəliflik – bizim sərvətimizdir, qarşılıqlı anlaşma və bir-birinə hörmət – Yaroslavl vilayətinin əmin-amanlığının və birliyinin əsasıdır.*

*Mənşəyindən asılı olmayaraq hər bir sakin qarşılıqlı hörmətə və dostluğa əsaslanan güclü və sabit cəmiyyətin yaradılmasına öz töhfəsini verir.*
*Birlikdə biz böyük uğurlara nail ola və qarşımıza çıxan bütün çətinlikləri dəf edə bilərik.*

ДОМ
НАРОДОВ
ЯРОСЛАВСКОЙ
ОБЛАСТИ

ДОМ
НАРОДОВ
ЯРОСЛАВСКОЙ
ОБЛАСТИ

# ƏCNƏBİ VƏTƏNDAŞLAR ÜÇÜN YADDAŞ KİTABÇASI

Miqrasiya uçotuna alınma

İş üçün patentin alınması

Əmək müqaviləsi

Məsuliyyətin növləri

Əcnəbi vətəndaş Rusiyada özünü necə aparmalıdır

Hər bir əcnəbi vətəndaş Rusiyaya daxil olarkən miqrasiya kartı alır. Miqrasiya kartında məqsəd kimi "İş" göstərmək tövsiyə olunur (lakin hazırda bu, mütləq deyil)

Daha sonra əcnəbi vətəndaş qəbul edən tərəfin yerləşdiyi yerə getməlidir.



**Miqrasiya uçotuna dayanın**



**Sənədləri hazırlayın**



**Müqavilə bağlayın**

Rusiyaya gələrkən əcnəbi vətəndaş miqrasiya uçotuna dayanmalıdır.
Bunun üçün sizin aşağıdakı müddətlər qədər vaxtınız var:
**30 gün** – əgər Siz AİB vətəndaşısınızsa
15 gün **</1>**– əgər Siz Özbəkistan və ya Tacikistan vətəndaşısınızsa
7 gün **</1>**– əgər Siz digər ölkələrin vətəndaşısınızsa

**Qəbul edən tərəf aşağıdakılar ola bilər:**
–yaşayış sahəsinin mülkiyyətçisi;
–hüquqi şəxs;
–Yaşayış sahəsini təqdim edən dövlət orqanı və ya beynəlxalq təşkilat

Miqrasiya kartının qüvvədə olma müddəti əcnəbi vətəndaşın Rusiyada qalma müddəti ilə müəyyənləşdirilir. Vizasız gediş-gəliş ölkələrinin vətəndaşları üçün bu müddət 180 günlük hər bir dövr üzrə ümumilikdə **90 günədək** təşkil edir.

Bu müddət başa çatdıqdan sonra Siz aşağıdakılar əsasında miqrasiya kartını uzada bilərsiniz:

–əmək müqaviləsi (1 ildən çox olmayan müddətə);
–İş üçün icazənin verilməsi və onun uzadılması;
–Patentin verilməsi və uzadılması və ya yenidən rəsmiləşdirilməsi;
–Müvəqqəti yaşama icazəsinin və ya daimi yaşama icazəsinin rəsmiləşdirilməsi;
–Rusiya Federasiyasının vətəndaşlığına qəbul üçün sənədlərin təqdim edilməsi;
–Həmvətənlərin köçürülməsi proqramında iştirak;
–Sağlamlıq vəziyyətinə görə ölkədən çıxa bilməmək.

Qəbul edən tərəf sənədlər dəstini formalaşdırır və onları miqrasiya uçotuna alınma barədə sənədin rəsmiləşdirilməsi üçün təqdim edir. Əcnəbi vətəndaşın olduğu yerə gəlişi barədə bildirişə 1 iş günü ərzində baxılır.

**Sənədi qəbul edən orqanın möhürü ilə gəliş haqqında bildirişin qoparılan hissəsi əcnəbi vətəndaşın Rusiyada miqrasiya uçotuna alınmasını təsdiq edən sənəddir.**

**İş üçün patent – sənəddir, bu sənəd:**

–Vizanın tələb olunmadığı qaydada Rusiyaya gəlmiş əcnəbi vətəndaşa və ya vətəndaşlığı olmayan şəxsə fiziki şəxsdə və ya hüquqi şəxsdə işləmək hüququ verir;
–yalnız həmin sənəddə göstərilmiş peşə üzrə işləməyə imkan verir;
–Rusiyanın hansı regionunda alınmışdırsa, yalnız həmin regionda etibarlıdır;
–18 yaşa çatmış əcnəbi vətəndaşlara verilir.

İş üçün patentin qüvvədə olma müddəti məhduddur – 12 aya qədərdir. Ödəniş patentin qüvvədə olduğu hər bir ay üçün həyata keçirilir. Patenti vaxtında ödəməsəniz, qüvvədən düşəcək!



1 **Rusiyaya gəliş**



2 **Sənədlərin hazırlanması**



3 **FŞGV-nin ödənilməsi**



4 **Sənədlərin təqdim edilməsi**



5 **Patentin alınması**



6 **İşə qəbul**

Patent üçün sənədlərin təqdim edilmə müddəti – Rusiya ərazisinə daxil olduğunuz andan etibarən 30 gündür (əgər sənədlərinizi səlahiyyətli təşkilat vasitəsilə təqdim edirsinizsə – 22 gün).

İş üçün patent bütün sənədlərin təqdim edildiyi andan etibarən 10 iş günü ərzində rəsmiləşdirilir.

**Patentin hazırlanması üçün sənədlər:**

–patentin verilməsi barədə ərizə;
–pasport və onun kserosurəti;
–3x4 sm ölçüdə fotoşəkil (rəngli, donuq);
–miqrasiya uçotuna (qeydiyyatına) alınma barədə bildiriş və onun kserosurəti;
–pasportun rus dilinə notarial qaydada təsdiq edilmiş tərcüməsi;
–ölkəyə giriş barədə möhürün vurulduğu miqrasiya kartı və onun kserosurəti;
–əcnəbi vətəndaşın tibbi şəhadətləndirmə sənədi;
–İİV-infeksiyasının olmaması barədə sertifikat;
–könüllü tibbi sığorta şəhadətnaməsi;
–rus dilini bilmək barədə sertifikat;
–patent üzrə sabit avans ödənişinin (FŞGV) ödənilməsi barədə qəbz.

**Əmək müqaviləsi** – işçi və işəgötürən arasında bağlanan və onların qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən razılaşmadır. Bu cür müqavilələri həm hər hansı bir şəxslə, həm də şirkətlə bağlamaq olar.

## Əmək müqaviləsində aşağıdakılar göstərilməlidir:



**əməyin ödənilməsi şərtləri və əmək haqqının məbləği**



**əmək haqqının ödənilmə qaydası və müddəti**



**iş vaxtının rejimi**



**digər təşkilatda işləri yerinə yetirmək imkanı**

### İşçinin hüquqları

−əmək müqaviləsinin şərtlərini vicdanla yerinə yetirmək;
−işdən çıxmazdan 14 gün əvvəl bu barədə işəgötürəni yazılı şəkildə məlumatlandırmaq;
−əmək intizamı və təhlükəsizlik texnikası qaydalarına əməl etmək;
−işəgötürənin əmlakı və inventarı ilə ehtiyatla rəftar etmək;
−həyat və sağlamlıq üçün təhlükəli vəziyyətlər barədə işəgötürənə məlumat vermək.

## İşəgötürənin vəzifələri

–əmək haqqını Sizə gecikmələr və çıxılmalar olmadan ödəmək;
–təhlükəsiz iş yerini və əmək müqaviləsində göstərilən işi təqdim etmək;
–iş üçün patentin qüvvədə olduğu müddət ərzində Rusiyanın regionunda müvəqqəti yaşama müddətini uzatmaq;
–vəzifə təlimatı və iş qrafiki barədə məlumatlandırmaq.

**Patenti aldıqdan sonra 2 ay ərzində əmək müqaviləsinin surəti DİN-ə göndərilməlidir.**

## İşçinin vəzifələri

–həyat və sağlamlıq üçün təhlükəli olan işləri yerinə yetirməkdən imtina etmək;
–əmək müqaviləsində göstərilməyən işləri yerinə yetirməkdən imtina etmək;
–əmək haqqı 15 gündən çox gecikdirildiyi halda, işi dayandırmaq. Bunun üçün işəgötürənə yazılı ərizə təqdim etmək lazımdır;
–əmək müqaviləsinin surətini, hesablaşma vərəqələrini, əmək haqqı barədə arayışları tələb etmək.



**Miqrasiya qanunvericiliyinin pozulması**
–Rusiyanın ərazisində sənədsiz olmaq;
–Miqrasiya uçotuna alınma qaydalarının pozulması;
–Patentsiz işləmək;
–Digər regionda/digər peşə üçün rəsmiləşdirilmiş patentlə işləmək;
–Patentin rəsmiləşdirilməsi müddətlərinə əməl etməmək;
–Sənədlərin etibarlılıq müddəti başa çatdıqdan sonra Rusiya ərazisində olmaq.



**İnzibati məsuliyyət**
–İctimai asayişin pozulması;
–İctimai yerlərdə söyüş söymək;
–Vətəndaşlara təhqiramiz şəkildə sataşmaq.

**Yaroslavl vilayətində saat 13.00-dan 15.00-a, saat 22.00-dan 6.00-a kimi səs-küy salmaq qadağandır**
(yayda 1 iyun tarixindən 31 avqust tarixinədək – saat 23.00-dan 6.00-dək).



**Cinayət məsuliyyəti**
–Vandalizm;
–Sağlamlığa ağır və ya orta dərəcəli zərər vurmaq;
–Qaçırma, oğurluq, soyğunçuluq;
–Hədələməklə pul qoparma; və s.

Rusiya – qanunların qüvvədə olduğu hüquqi dövlətdir və hər kəs bu qanunları yerinə yetirməyə borcludur. Qanun pozuntusunun ağırlıq dərəcəsindən asılı olaraq müxtəlif məsuliyyət növləri ilə qarşılaşa bilərsiniz.

|  |  |  | **Pozuntulara görə cəzaların növləri** |
|---|---|---|---|
| | ✓ | | İnzibati həbs |
| | | ✓ | Həbs |
| ✓ | ✓ | | Rusiyadan qovulma |
| | | ✓ | Deportasiya |
| | | ✓ | Həbsxanada həbs |
| | | ✓ | Rusiyaya giriş qadağası |
| | ✓ | | Məcburi işlər |
| ✓ | ✓ | ✓ | Cərimə |

**Qanunlara əməl edin**
Rusiya – bütün problemlərin qanuni yolla həll edilə biləcəyi ölkədir: bunun üçün rüşvət vermək, "sövdələşmək", "tanışlar tapmaq" lazım deyil. Hamımız qanunlara əməl etdiyimiz müddətdə bu qanunlar çətin vəziyyətlərdə köməyimizə gələcəkdir.

**Böyüklərə hörmət edin**
Rusiyada böyükləri dinləmək və onlara kömək etmək: onların tövsiyələrini dinləmək, nəqliyyatda və ya növbədə yer vermək qəbul edilmiş adətlərdəndir. Bu, təkcə yaşa deyil, həm də statusa da aiddir. Əgər yaşca və ya işdə vəzifəcə sizdən böyük insan sizə nə isə deyirsə, – ona qulaq asmağa çalışın.

**Emosiyalarınızı cilovlamağa çalışın**
Rusiyada çox zaman deyirlər ki, "xoşbəxtlik sakitliyi sevir". Lakin bu ona görə deyil ki, ruslar öz xoşbəxtliyini sizinlə bölüşməyə hazır deyillər, xeyr – əksinə. Xoşbəxtliyi ən yaxın insanlarla bölüşməyə daha çox üstünlük verilir. Qalan bütün insanların isə bu barədə bilmələri mütləq deyil – axı onların öz işləri və öz problemləri var. Bilmək olmaz, bəlkə də küçədən keçən insan sizin qədər xoşbəxt olmadığına görə məyus ola bilər. Buna görə də, ətrafdakılara mane olmamaq üçün emosiyalarınızı çox da büruzə verməməyə çalışın.

**Nəzakətli olun və kömək etməyə hazır olun**
Hər bir insanın çətinlikləri olur – bu qaçılmazdır. Rusiyada insanlar hər bir kəsin köməyinə gəlməyə hazırdırlar, xüsusilə də, onlardan bu barədə nəzakətlə xahiş etdikdə. Buna görə də, çətin vəziyyətə düşsəniz – sadəcə ətrafdakılardan Sizə kömək etmələrini xahiş edin, onlar xahişinizi rədd etməyəcəklər. Sadəcə olaraq, nəzakətlə və "Siz" deyə müraciət edərək xahiş edin – o zaman mütləq hər şey alınacaq.

**Başqasının rahatlığına hörmət edin**
Rusiyada şəxsi məkan və rahatlıq anlayışlarına çox dəyər verilir, buna görə də, kimsə onları pozanda, rusiyalılar bundan narazı ola bilərlər. Bu səbəbdən də, Rusiyada ictimai yerlərdə ucadan danışmaq, musiqiyə qulaq asmaq, itələşmək və s. qəbuledilməzdir. Bunları etməməyə çalışın və Siz ətrafdakıların sizə olan münasibətinin necə dəyişəcəyini görəcəksiniz.

**Başqa mədəniyyətə hörmət edin**
Rusiya – bir çox mədəniyyətin bir-birinə qarışdığı çoxmillətli ölkədir. Rusiyalılar başqasının mədəniyyətinə hörmətlə yanaşmağa hazırdırlar, yalnız o halda ki, Siz də eynisini edəsiniz. Bizim üçün çox dəyərli olan bir çox vacib bayramlar və heykəllər vardır. Onlara hörmətlə yanaşın, o zaman Sizin ənənələrinizə də hörmətlə yanaşacaqlar.

# RUSİYA TERRORA QARŞIDIR



**RUSİYADA TERROR XARAKTERLİ CİNAYƏTLƏRİN TÖRƏDİLMƏSİNƏ GÖRƏ ÖMÜRLÜK HƏBS CƏZASINA QƏDƏR CİNAYƏT MƏSULİYYƏTİ NƏZƏRDƏ TUTULUR**

---

**TERRORÇULARLA ƏLAQƏLİ OLA BİLƏCƏK ŞƏXSLƏRLƏ ƏLAQƏ YARATMAYIN**

---

**BUNUN ÜÇÜN SİZƏ PUL TƏKLİF OLUNSA BELƏ, NAMƏLUM BAĞLAMALARI ÇATDIRMAĞA RAZI OLMAYIN**

---

**TANIMADIĞINIZ İNSANLARI DƏSTƏKLƏMƏK ÜÇÜN VƏSAİTLƏR GÖNDƏRMƏYİN, ONLAR BEYNƏLXALQ TERROR TƏŞKİLATLARININ FƏALİYYƏTİNDƏ İŞTİRAK EDƏ BİLƏRLƏR**

# DƏRHAL POLİSƏ MƏLUMAT VERİN

- Əgər terrorçu və ya ekstremist təşkilatların fəaliyyəti barədə xəbərdar olmusunuzsa
- Sizi terror xarakterli cinayət törətməyə məcbur edir, terrorçuların sırasına cəlb edir, pul köçürməyi təklif edirlərsə
- Hər hansı bir insanın hərbi əməliyyatlarda iştirak etmək üçün xaricə getmək niyyətindən xəbərdar olmusunuzsa

POLİS
**112**

Yaroslavl vilayətində Rusiya Federal Təhlükəsizlik Xidmətinin Növbətçi İdarəsi **(4852) 20-00-40**

Rusiya DİN-nin Yaroslavl vilayəti üzrə İdarəsinin Ekstremizmə qarşı mübarizə mərkəzi
**(4852) 59-12-51**

**BU, BİR ÇOX İNSANIN HƏYATINI XİLAS EDƏCƏK!**

# XARİCİ DİL KİMİ RUS DİLİ, RUSİYA TARİXİ VƏ RUSİYA QANUNVERİCİLİYİNİN ƏSASLARI ÜZRƏ İMTAHANLARIN QƏBULU

Rusiya Federasiyasının qüvvədə olan qanunvericiliyinə əsasən, aşağıdakı hallarda əcnəbi vətəndaşlar üçün imtahanın verilməsi məcburidir:

- **MYİ və ya DYİ almaq üçün miqrasiya xidmətinə müraciət etməzdən əvvəl**
- **İş vizasını almazdan əvvəl**
- **Əmək fəaliyyətini həyata keçirmək məqsədi ilə Rusiyaya gəlmiş və eyni zamanda rəsmi iş icazəsi almaq istəyən vizasız miqrantlar üçün**

**İmtahanların qəbulu aşağıdakı ünvanda aparılır:**

**Yaroslavl şəh., Poluşkina Roşşa küç, ev 16, bina 51**

**Məlumat almaq üçün telefon nömrəsi: +7(905)638-16-64**

**E-poçt: migrant@uniyar.ac.ru**

**İMTAHANLARIN QƏBULU**

ДОМ
НАРОДОВ
ЯРОСЛАВСКОЙ
ОБЛАСТИ

**Yaroslavl şəh., Oktyabr pr., 88 "b" (1-ci mərtəbə)**
**E-poçt: domnarodovyao@mail.ru**

Yaroslavl vilayətinin
Xalqlar evinin saytı

Rusiya DİN-nin Yaroslavl
vilayəti üzrə İdarəsinin
əlaqə məlumatları və
strukturu

Yaroslavl vilayətinin
Xalqlar evinin
VKontakte-dəki qrupu

Yaroslavl vilayətinin
Xalqlar evinin
Telegram kanalı